1. Aktivlərin azalması və öhdəliklərin artması ilə bağlı iqtisadi səmərənin azalmasının baş verdiyi və bu azalmanın etibarlı səviyyədə qiymətləndirilməsinə imkanın mövcud olduğu hallarda-hansı hesabat elementi tanınır?

- MVHH_kapital
- MZHH-gəlir
- √ MZHH-xərc
- MVHH-aktiv
- MVHH-öhdəlik

2. Uzunmüddətli maddi aktivlərin balans dəyəri dedəkdə nə başa düşürsüz?

- aktivin balans dəyərinin onun ödənilmə dəyərindən artıq olan məbləğidir.
- iki kəmiyyətdən: satışa çəkilən xərclər çıxılmaqla aktivin ədalətli dəyərindən, yaxud onun istifadəsinin qiymətliliyindən - ən yüksək olandır.
- √ istənilən yığılmış amortizasiya və qiymətdəndüşmədən olan zərərlər çıxılmaqla onların tanındığı məbləğdir.
- elə hesabi kəmiyyətdir ki, həmin kəmiyyəti şirkət faydalı istifadə müddətinin sonunda aktivin təsərrüfatdançıxma xərcləri çıxılmaqla satışından əldə edəcəkdir.
- elə hesabi kəmiyyətdir ki, həmin kəmiyyəti şirkət faydalı istifadə müddətinin sonunda aktivin təsərrüfatdançıxma xərcləri çıxılmaqla satışından əldə edəcəkdir.

3. Beynəlxalq Maliyyə Hesabatı Standartında Xərclərin tanınması:

- düzgün cavab yoxdur
- √ öhdəliyin ilkin tanınması yaxud öhdəliyin balans dəyərinin artması ilə; aktivin tanınmasının dayandırılması yaxud aktivin balans dəyərinin azalması ilə eyni zamanda həyata keçirilir
- aktivin tanınmasının dayandırılması yaxud aktivin balans dəyərinin artması ilə eyni zamanda həyata keçirilir; eyni zamanda öhdəliyin ilkin dəyəri azalır
- iqtisadi faydaların müəssisəyə daxil olması ilə eyni vaxtda həyata keçirilir
- aktivin ilkin tanınması yaxud aktivin balans dəyərinin artması ilə;aktivin tanınmasının dayandırılması yaxud aktivin balans dəyərinin azalması ilə eyni zamanda həyata keçirilir

4. Sahibkar nizamnamə kapitalına qoyuluş olaraq məüssisəyə bina təqdim etmişdir. İkili yazılış verin

- dt bina kt pul vəsaiti
- dt bina kt öhdəlik
- dt bina kt ehtiyat
- dt bina kt ticari öhdəlik
- √ dt bina kt nizamnamə kapitalı

5. Müəssisə daxilində yaradılmış avadanlığın aktiv kimi tanınması bu ikili yaızlışla aparılır:

- √ dt avadanlıq kt kapitallaşan məsrəf
- dt kapital kt pul vəsaiti
- at avadanlıq kt sahibkar kapitalı
- dt avadanlıq kt pul vəsaiti
- dt avadanlıq kt ticari öhdəlik

6. Müəssisə uzunmüddətli istifadə etmək üçün 2000 manata kompyuter satın almış, 1000 manatını nağd ödəmiş, digər 1000 mnatı isə borclu qalmışdır. Əməliyyat üçün ikili yaızlış verin

- dt mal 2000
kt pul vəsaiti 1000
kt ticari öhdəlik 1000
- dt avadanlıq 2000
kt pul vəsaiti 2000
- dt pul vəsaiti 2000 kt qeyri- maddi aktiv 1000
- √ dt avadanlıq 2000
kt pul vəsaiti 1000
kt ticari öhdəlik 1000
- dt qeyri maddi aktiv 2000
kt pul vəsaiti 1000
kt ticari öhdəlik 1000

7. Müəssisədə meyvə ağacı məhsul verməyə başlamışdır. Müəssissə həmin meyvə ağacını uçotda necə əks etdirməlidir?

- dt pul vəsaiti kt kapital
- dt bioloji aktiv kt pul vəsaiti
- dt avadanlıq kt kapitallaşan məsrəf
- √ dt bioloji aktiv kt kapitallaşan məsrəf
- dt avadanlıq kt pul vəsaiti

8. Tədris mərkəzi 400 manat dəyərində, istifadə müddəti 5 il olan proyektoru dəyərini nağd ödəməklə satın almışdır. İkili yazılışı yazın:

- dt qeyri maddi aktiv 400 kt bank krediti 400
- dt qeyri maddi aktiv 400 kt pul vəsaiti 400
- dt qeyri avadanlıq 400 kt ticari öhədlik 400
- √ dt avadanlıq 400 kt pul vəsaiti 400
- dt öhdəlik 400 kt avadanlıq 400

9. Satış güzəşti ilə bağlı aşağıdakı yazılışlardan doğru olanı seçin:

- təqdim edilmiş güzəştlər alışların kreditinə qeyd olunur
- təqdimedilmış güzəştlər satışların kreditinə yazılır
- təqdim edilmiş güzəştlərə heç bir yazılış verilmir
- √ təqdim edilmiş güzəştlər satışın debetinə yazılır
- təqdim edilmiş güzəştlər debitor borcun debetinə yazılır

10. Şirkət satdığı mal müqabilində qarşı firmaya güzəşt etdiyi halda aşağıdakı fikirlərdən hansı doğrudur?

- xərc hesabı debetləşəcək
- gəlir hesabı dəyişmir
- smmd hesabı kreditləşəcək
- √ gəlir hesabı debetləşəcək
- kreditor borc hesabi debetləşəcək

11. Ticarətlə məşğul olan müəssisə maya dəyəri 4000 manat olan malları 5000 manat nağd pula satır. Bu əməliyyatın düzgün müxabirələşməsi necə olmalıdır?

- dt mallar 4000
kt smmd 4000
dt debitor borcu 5000
kt satışdan gəlir 5000
- dt satışdangəlir 5000 kt debitor borc 5000
- dt debitor borcu 5000
kt satışdan gəlir 5000
dt satışdan gəlir4000
kt mallar 4000
- √ dt smmd 4000
kt mallar 4000
dt pul vəsaiti 5000
kt satışdan gəlir 5000
- dt smmd 4000
kt mallar 4000
dt debitor borcu5000
kt satışdan gəlir 5000

12. Ticarətlə məşğul olan müəssisə maya dəyəri 2000 manat olan malları 3500 manata kreditlə satır. Bu əməliyyatın düzgün müxabirələşməsi necə olar?

- dt debitor borcu 3500
kt satışdan gəlir 3500
dt satışdan gəlir 2000
kt mallar 2000
- dt smmd 2000
kt mallar 2000
dt pul vəsaiti 3500
kt satışdan gəlir 3500

- dt mallar 2000
  kt smmd 2000
  dt debitor borcu 3500
  kt satışdan gəlir 3500
- √ dt smmd 2000
  kt mallar 2000
  dt debitor borcu 3500
  kt satışdan gəlir 3500
- dt mal 200 kt debitorborc 3500

13. Ticarətlə məşğul olan müəssisə ehtiyatların uçotunu “fasiləsiz uçot” metodu ilə aparır. Kreditlə (nisyə) alınmış malların alışı zamanı 50 manat dəyərində zay mal aşkarlanaraq geri qaytarılmış və borcdan silinmişdir. Düzgün müxabirələşmə necə olar?

- dt pul vəsaiti 50
  kt qaytarılan mallar 50
- dt kreditor borc 50 dt pul vəsaiti 50
- dt mallar 50
  kt pul vəsaiti 50
- dt qaytarılan mallar 50
  kt pul vəsaiti 50
- √ dt kreditor borcu 50
  kt mallar 50

14. BC müəssisəsi ehtiyatların uçotunu "Dövrü uçot” metodu ilə aparır. Malların alışı zamanı 150 manat dəyərində zay mal aşkarlanaraq geri qaytarılmış və pulu da geri alınmışdır.Bu əməliyyatın düzgün müxabirələşməsi necə olmalıdır?

- dt pul vəsaiti 150 kt kreditor borcu 150
- dt qaytarılan alışlar 150
  kt kreditor borcu 150
- dt alışlar 150
  kt pul vəsaiti 150
- √ dt pul vəsaiti 150
  kt qaytarılan alışlar 150
- dt qaytarılan alışlar 150
  kt pul vəsaiti150

15. Ticarətlə məşğul olan müəssisə ehtiyatların uçotunu “fasiləsiz uçot” metodu ilə aparır. Müəssisə satmaq üçün nağd pul ödəyərək 2500 manat dəyərində mallar alır. Alış zamanı malın anbara gətirib çatdırılmasına 200 manat nəqliyyat xərci çəkilmişdir. Qeyd olunan əməliyyatların düzgün müxabirələşməsi necə olmalıdır?

- dt pul vəsaiti 200 kt nəqliyyat xərci 200
- dt pul vəsaiti 2500
  kt mallar 2500
  dt mallar 200
  kt pul vəsaiti 200
- dt mallar 2500
  kt pul vəsaiti 2500
  dt pul vəsaiti 200
  kt mallar 200
- √ dt mallar 2500
  kt pul vəsaiti 2500
  dt mallar 200
  kt pul vəsaiti 200
- dt mallar 2500
  kt pul vəsaiti 2500
  dt nəqliyyat xərci 200
  kt pul vəsaiti 200

16. Müəssisə 1000 manata satın aldığı avadanqılığın istehsal sexinə qədər çatdırılmasna 100 manat sərf etmişdir. Müəssisə üçün avadanlığın ilkin dəyəri nə qədərdir?

- 1000
- 200
- 900
- √ 1100
- 100

17. Müəssisə kommersiya krediti ilə südlük qoyun satın almışdır. Əməliyyat üçün ikili yazılış verin.

- dt avadanlıq kt pul vəsaiti
- dt pul vəsaiti kt avadanlıq
- dt avadanlıq kt tiari öhdəlik
- dt mal kt ticari öhdəlik

√ dt bioloji aktiv kt ticari öhdəlik

18. Müəssisə 1000 manata satın aldığı avadanqılığın quraşdırılmasına 300 manat sərf etmişdir. Müəssisə üçün avadanlığın ilkin dəyəri nə qədərdir?

- 100
- 300
- 1000

√ 1300

- 700

19. Müəssisə ofisdə istifadə olunmaq məqsədi ilə dəyərini nağd ödəməklə 4000 manat dəyərində komputer satın almışdır. Ikili yazılış verin

- dt qeyri-maddi aktiv 4000
  kt pul vəsaiti 4000
- dt qeyri-maddi aktiv 4000
  kt ticari öhdəlik 4000
- dt avadanlıq 4000
  kt kapital 4000

√ dt avadanlıq 4000
kt pul vəsaiti 4000

- dt avadanlıq 4000
  kt ticari öhdəlik 4000

20. Müəssisə əsas fəliyyətində istifadə etmək məqsədi 5000 manata kommersiya krediti ilə yeni dəzgah satın almışdır. İkili yazılışı verin

- dt kapital 5000 kt kapital5000
- dt pul vəsaiti 5000
  kt avadanlıq 5000

√ dt avadanlıq 5000
kt kreditor borc 5000

- dt avadanlıq 5000
  kt kapital 5000
- dt avadanlıq 5000
  kt pul vəsaiti 5000

21. Kommersiya krediti ilə avadanlıq alınmışdır. İkili yazılış verin

√ dt avadanlıq kt kreditor borc

- dt kapital kt avadanlıq
- dtavadanlıq kt kapital
- dt avadanlıq kt pul vəsaiti
- dt pul vəsaiti kt avadanlıq

22. Müəssisə 2 ədəd kompüter avadanlığını nağd pul ödəməklə alır. Bunlardan birini (dəyəri 1450AZN) satmaq üçün, digərini (dəyəri 1800AZN) isə istifadə etmək məqsədilə alır. Bu əməliyyatın düzgün mühasibat yazılışı aşağıdakılardan hansıdır?

- dt kompüter 3250
  kt pul vəsaiti 3250
- dt komputer 3250 kt mal 1800
- dt mallar 1450
  dt avadanlıq 1800
  kt kreditor borcu 3250
- dt avadanlıq 1450
  dt mallar 1800
  kt pul vəsaiti 3250

√ dt mallar 1450
dt avadanlıq1800
kt pul vəsaiti 3250

23. Əvvəlcədən ödənilmiş icarənin qalığı 6000 AZN-dir. Aylıq icarə ödənişi 600 azn olmsını nəzərə alaraq 3 aylıq düzəliş qeydinin müxabirələşməsi necə olar?

- dt əvvəlcədən ödənilmiş icarə 1800 kt icarə xərci 600
- dt icarə xərci 600
  kt əvvəlcədən ödənilmiş icarə 600
- dt əvvəlcədən ödənilmiş icarə 1800
  kt icarə xərci 1800

√ dt icarə xərci 1800 kt əvvəlcədən ödənilmiş icarə 1800

- dt əvvəlcədən ödənilmiş icarə 600
  kt icarə xərci 600

24. Yoxlama zamanı məlum olmuşdur ki, müəssisənin dəftərxana ləvazimatlarının qalıq dəyəri 200 manat olmuşdur. Ləvazimatların ilkin qalığının 1500 olmasını nəzərə alaraq aşağıdakılardan hansı düzəliş qeydinin müxabirələşməsi düzgündür?

√ dt dəftərxana xərci 1300
kt dəftərxana ləvazimatı 1300

- dt dəftərxana xərci 1500
  kt dəftərxana xərci 1500
- dt dəftərxana xərci 200
  kt dəftərxana ləvazimatı 200
- dt pulvəsaiti 200 kt deftərxana ləvazimati 1500
- dt dəftərxana xərci 1300
  kt dəftərxana ləvazimatı 200

25. Müəssisənin dəftərxana mallarının ilkin dəyəri 1000 manat olmuşdur. Hesabat dövrünün sonunda məlum olmuşdur ki, bunların 30%-i istifadə olunub. Düzəliş qeydinin müxabirələşməsi necə olacaq?

- dt dəftərxana ləvazimatı 700
  kt dəftərxana xərci 700
- dt dəftərxana ləvazimatı 1300 kt dəftərxana xərci 1300

√ dəftərxana xərci 300 kt dəftərxana ləvazimatı 300

- dt pul vəsaiti 300kt dəftər xana ləvazimatı300
- dt dəftərxana xərci 700
  kt dəftərxana ləvazimatı 700

26. Bunlardan biri müəssisədə bioloji aktiv kimi tanınır

√ meyvə bağlarındakı ağac

- əmtəə nişanı
- Ət məhsullarl istehsal edən müəssisənin tövləsindəki qoyun
- meyvə şirəsi istehsal edən müəssisənin anbarındakı nar
- Tarladakı sünbül

27. Bu səhvlərdən biri bütün hesablar üzrə debet və kredit qalıqlarının cəmlənərək müqayisə edildiyi zaman bərabərsizliyə səbəb olmayacaq.

- Kassaya mədaxilin kassa hesabının kreditində qeydə olunması
- doğru cavab yoxdur
- Alıcının etdiyi ödənişin alıcının debitor borcu hesabının debetində qeydə alınması
- Kassadan məxaricin kassa hesabının debetində qeyd olunması

√ cari dövrdə satın alınmış malın səhvən uçotda hazır məhsul hesabının debetində qeydə alınması

28. Öhdəlikləri uçota alan hesabların son qalığı belə müəyyən olunur:

- ilkin qalıq+debet dövriyyə-kredit dövriyyə

√ ilkin qalıq+kredit dövriyyə-debet dövriyyə

- ilkin qalıq+debet dövriyyə
- ilkin qalıq- dövriyyə
- ilkin qalıq+kredit dövriyyə

29. Aktivləri uçota alan hesabların son qalığı belə müəyyən olunur

- ilkin qalıq+kredit dövriyyə-debet dövriyyə
- ilkin qalıq+döviyyə
- ilkin qalıq+kredit dövriyyə
√ ilkin qalıq+debet dövriyyə-kredit dövriyyə
- ilkin qalıq+debet dövriyyə

30. Malsatan firmaya bank hesabı vasitəsilə borcun ödənilməsi səhvən "dt malsana borc kt kassa" yazılışı verilmişdir. Səhvin düzəlişi üçün hansı ikili yazılış verilməlidir?

- dt bank hesabı kt pul vəsaiti
- dt bank hesabı kt kassa
- dt mal kt ticari öhdəlik
√ dt kassa kt bank hesabı
- dt kassa kt malsatana borc

31. Alıcı debitor borcu məbləğini kassaya ödəyərkən səhvən "dt bank hesabı kt debitor borc" yazılışı verilmişdir.Səhvin düzəlişi üçün hansı ikili yazılış verilməlidir?

- dt debitor borc kt bank hesabı
- dt bank hesabı kt kassa
- dt debitor borc kt kassa
√ dt kassa kt bank hesabı
- dt bank hesabı kr ehtiyyat

32. Aşağıdakı ifadələrdən biri doğrudur

- kapital hesablarında artım debetdə yazılır.
- aktiv hesablarda artım kreditdə yazılır
- aktiv hesablarda azalma debetdə yazılır.
√ Öhdəlik hesablarında azalama debetdə yazılır
- kapitalın artımı debitdə yazılır

33. Aşağıdakı ifadələrdən biri doğrudur

- Gəlir hesablarının ilkin qalığı debetdə yazılır.
- kapital hesablarnının ilkin qalığı debetdə yazılır.
- öhdəliklərin azalması dövriyyədə qeyd olunur
- öhdəlik hesablarının ilkin qalığı debetdə yazılır
√ aktiv hesabların ilkin qalığı və son qalığı debetdə yazılır

34. Sintetik hesablar aşağıdakılardan hansı haqqında informasiya daşyıcısıdır?

- əmək ölçü vahidi
- analitik informasiya
√ pul ifadəsi ilə dəyər
- həm pul ifadəsi ilə dəyər həm də analitik informasiya
- hesabın aid olduğu maddənin natural ölçü vahidi

35. Köməkçi hesablar hansılardır?
1. Aktivlər
2. Dividend
3. Gəlir
4. Öhdəlik
5. Xərc

- 2.40
- 2; 4; 1
- 1; 2; 3
- 4; 5; 3
√ 2; 3; 5

36. Müvəqqəti hesabların bağlanması nə deməkdir?

- dividendlərin qeydiyyatı
- xərclərin mənfəətə silinməsi
√ gəlir və xərclərin bölüşdürülməmiş mənfəətə silinməsi
- gəlirlərin mənfəətə silinməsi
- gəlir və xərclərin müəyyən edilməsi

37. Müvəqqəti (köməkçi) hesablar ilin sonunda hansı hesaba bağlanır?

- mənfəət
- öhdəliklərdə
- cəmi aktiv və passiv şəklində qeyd olunur
√ bölüşdürülməmiş mənfəət
- kreditor və debitor borcları

38. Aşağıdakı hesablardan hansı müvəqqəti hesablara aiddir?

- kreditor və debitor borcları
- yalnız şübhəli borc ehtiyyatı
- gələcək dövrün xərci, gələcək dövrün gəliri, mənfəət
- yığılmış amortizasiya, alınmış güzəşt, şübhəli borc ehtiyatı
√ gəlir, xərc, mənfəət

39. Hansı qeydlər hesabat dövrünün sonunda gəlir, xərc və cari aktiv hesabları üzrə dəqiqləşmələrin aparılmasıdır.

- kontra qeydlər
- ikili qeydlər
- əsas qeydlər
- köməkçi qeydlər
√ düzəliş qeydləri

40. Düzəliş qeydləri nə zaman aparılır?

- ayın sonunda
- ilin ortasında
- hər gün
√ hesabat dövrünün sonunda
- ilin sonunda

41. MZHH-da düzəliş qeydlərinin aparılmasının əsas məqsədi nədir?

- gəlir və xərclərin artırılması
- yalnız xərclərın azalmasının qeydiyyatı
- yuxarıdakıların hamısı
√ gəlir və xərclərin dəqiqləşdirilməsi
- gəlir və xərclərin azaldılması

42. Müəssisə müştəriyə 3000 AZN dəyərində nisyə (kreditlə) xidmət göstərir. Bu əməliyyatın mühasibat yazılışı necə olmalıdır?

- dt kreditor borcu 3000 kt xidmətdən gəlir 3000
- dt xidmət haqqı 3000 kt pul vəsaiti 3000
- dt pul vəsaiti 3000 kt xidmətdən gəlir 3000
- dt pul vəsaiti 3000 kt kreditor borcu 2000
√ dt debitor borcu 3000 kt xidmətdən gəlir 3000

43. Müəssisə dost təşkilatdan 1000 AZN məbləğində borc pul götürür. Bu əməliyyatın jurnalda düzgün mühasibat yazılışı necə olmalıdır?

- dt pul vəsaiti 1000 kt faiz xərci 1000
- dt pul vəsaiti1000 kt debitor borc 1000
√ dt pul vəsaiti 1000 kt alınmış borc 1000

- dt kreditor borcu 1000 kt pul vəsaiti 1000
- dt alınmış borc 1000 kt pul vəsaiti 1000

44. Təsisçi yeni müəsisə qurmaq üçün 10 000 AZN məbləğində pul vəsaiti və 5000 AZN dəyərində avadanlıqları kapital qoyuluş edir. Bu əməliyyatın jurnalda düzgün mühasibat yazılışı (müxabirələşməsi) necə olmalıdır

- dt pul vəsaiti 15 000 kt nizamnamə kapitalı 15000
- dt pul vəsaiti 5000 dt avadanlıq 10 000 kt nizamnamə kapitalı 5000
- dt nizamnamə kapitalı1500 kt kassa 5000
- √ dt pul vəsaiti 10 000 dt avadanlıq 5000 kt nizamnamə kapitalı 15000
- dt pul vəsaiti 10 000 kt nizamnamə kapitalı 10 000

45. Aşağıdakı hesablardan hansının artması həmişə debetdə baş verir?

- öhdəlik
- vergi
- kapital
- √ xərc
- gəlir

46. Aşağıdakılardan hansı kontr-aktiv hesab deyil?

- şübhəli borclar üzrə ehtiyat
- verilmiş avans
- alınmış güzəşt
- yığılmış amortizasiya
- √ verilmiş güzəşt

47. Balansı nəyə əsasən tərtib olunur?

- hər bir hesabın debitdəki ilkin qalığına əsasən
- hər bir hesabın kredit dövriyyəsinə əsasən tərtib olunur
- √ hər bir hesabın yekun qalığına əsasən tərtib olunur
- hər bir hesabın debet dövriyyəsinə əsasən tərtib olunur
- hər bir hesabın ilkin qalığına əsasən tərtib olunur

48. "T şəkilli" hesablar bunlardan birnin tərkibinə daxildir:

- kassa mədaxil orderi
- İlkin sənədlər
- investisiya blankı
- √ Baş kitab
- kassa məxaric orderi

49. Aktivləri 100000 manat, öhdəlikləri 50000 manat, dövrün əvvəlinə kapitalı 30000 manat, gəliri 10000 olan müəssisənin dövr üzrə xərcini hesablayın

- 70000
- 20000
- 190000
- √ 10000
- 130000

50. Aktivləri 200000 manat, öhdəlikləri 70000 manat, dövrün əvvəlinə kapitalı 80000 manat olan müəssisənin dövr üzrə bölüşdürülməmiş mənfəətini hesablayın

- 53000
- 190000
- 210000
- √ 50000

- 350000

51. Hansı hesabata hesablama metodu tətbiq olunmur?

- Xüsusi kapitalda dəyişiklik haqqında hesabat
- İkiliqeydiiyyat heabatı
- maliyyə nəticələri (mənfəəət və zərərlər) haqqında hesabat
- maliyyə vəziyyəti haqqında hesabat
- √ Pul vəsaitinin hərəkəti haqqında hesabat

52. Aşağıda qeyd olunanlardan biri qısamüddətli aktiv kimi uçota alınmır.

- √ torpaq
- mal material ehtiyatı
- pul vəsaiti
- debitor borc
- hazır məhsul

53. Daşınmaz əmlak alqı-satqısı ilə məşğul olan müəssisənin satış məqsədilə aldığı bina maliyyə vəziyyəti haqqında hesabatın hansı bölməsində əks etdiriləcək?

- qısamüddətli öhdəliklər
- uzunmüddətli aktivlər
- kapital
- √ qısamüddətli aktivlər
- uzunmüddətli öhdəliklər

54. Mobil telefon istehsal edən müəssisənin istehsal etdiyi telefonlar maliyyə vəziyyəti haqqında hesabatın hansı bölməsində əks etdiriləcək?

- uzunmüddətli aktivlər
- √ qısamüddətli aktivlər
- kapital
- uzunmüddətli öhdəliklər
- qısamüddətli öhdəliklər

55. Gəlir və xərc elemetləri birbaşa hansı maliyyə hesabatı komponentinə aiddir?

- Maliyyə vəziyyəti haqqında hesabat
- izahlı qeydlər
- Xüsusi kapitalda dəyişikliklər haqqında hesabat
- Pul vəsaitinin hərəkəti haqqında hesabat
- √ Maliyyə nəticələri (mənfəəət və zərərlər) haqqında hesabat

56. 60000 manat kapitalı, 55000 manat öhdəliyi olan müəssisənin aktivlərini hesablayın

- 55000
- 3400
- 5000
- 60000
- √ 115000

57. 80000 manat aktivləri, 38000 manat öhdəlikləri olan müəssisənin kapitalını hesablayın

- 38000
- 3222
- 128000
- 80000
- √ 42000

58. Aşağıdakı hesablardan hansı aktivlərə aiddir?
1. Alımış veksel
2. İnvestisiya qoyuluşu
3. Gələcək dövrün xərci
4. Gələcək dövrün gəliri
5. İstehsal məsrəfi
6. Verilmiş veksel

- 1; 2; 4; 5
- 1,2,5
- 1; 2; 3
- 1, 4; 6
- √ 2; 3; 5

59. Aşağıdakı hesabların hansının kreditində balans alınması səhvin nəticəsidir?

- nizamnamə kapitalı
- emisiya gəliri
- xidmətdən gəlir
- √ ehtiyyatlar
- vergi öhdəliyi

60. Aşağıdakılardan hansı aktiv hesab deyil?

- √ qazanılmamış gəlir
- lisenziya
- patent
- yığılmış amortizasiya
- kassa

61. Müxabirələşmə zamanı hesablarda hansı dəyişiklik baş verir?

- √ yuxarıdakıların hamısı
- yalniz bir hesab azalır
- 2 və daha çox hesab eyni vaxtda azalır
- 2 və daha çox hesab eyni vaxtda artır
- 2 və daha çox hesab görüşür

62. A şirkəti B şirkətindən əldə etdiyi mala görə 750 manat borclu qalmışdır. Bu əməliyyat B şirkətinin hesabatına necə təsir edəcəkdir?

- gəlir artacaq
- kreditor borcu artacaq
- √ debitor borcu artacaq
- xərc artacaq
- kapital azalır

63. Bəzi hesabların dövriyyələri və qalıqları səhv olsa belə, sınaq balansında kreditlərin cəmi debitlərin cəminə bərabər ola bilər. Bu ifadə doğrudurmu?

- doğrudur
- yalnız dövriyəyə bərabərdir
- yalniz son qaliqlara bərabərdir
- √ yanlışdır
- yalniz ilk qlıqlara bərabərdir

64. Yığılmış amortizasiya aşağıdakılardan hansı hesab növünə aiddir?

- əks-öhdəlik hesabı
- kapital hesabı
- aktiv hesab
- öhdəlik hesabı
- √ əks-aktiv hesabı

65. Malsatan və podratçılara verilmiş avanslar MVHH_da hansı bölmədə əks etdirlir?

- kapital bölməsində
- yalnız uzunmüddətli öhdəliklər bölməsində
- √ qısamüddətli akitvlər və uzunmddətli aktivlər bölmələrində
- yalnız qısamüddətli öhdəliklər bölməsində
- qısa müddətli öhdəliklər və uzunmüddətli öhdəliklər bölmələrdə

66. Alıcı və sifarişçilərdən alınmış avanslar MVHH-da hansı bölmədə əks etdirilir?

- qısamüddətli aktivlər bölməsində
- √ qısa müddətli öhdəliklər və uzunmüddətli öhdəliklər bölmələrdə
- qısamüddətli akitvlər və uzunmddətli aktivlər bölmələrində
- kapital bölməsində
- uzunmüddətli aktivlər bölməsində

67. Pul vəsaitləri ilə bağlı informasiya əks etdirlir

- qısamüddətli öhdəliklər bölmələrində
- Ehtiyyatlar bölməsində
- kapital bölməsində
- √ qısamüddətli aktivlər bölməsində
- uzunmüddətli aktivlər bölməsində

68. Alıcı və sifairşçilərin debitor borclalrı əks etdirilir

- qısamüddətli öhdəliklər bölməsində
- uzunmüddətli öhdəliklər bölməsində
- qısamüddətli faiz öhdəlikləri bölməsində
- uzunmüddətli faiz öhdəlikləri bölməsində
- √ qısamüddətli akitvlər və uzunmddətli aktivlər bölmələrində

69. Malsatanlara kreditor borcları MVHH -da necə əks etdirilir

- qisamüddətli aktivlərin nəzdində
- qısamüddətli sair aktivlər bölməsində
- √ qısa müddətli öhdəliklər və uzunmüddətli öhdəliklər bölmələrdə
- qsamüddətli aktivlər bölməsində
- uzunmüddətli sair aktivlər bölməsində

70. Açıq Səhmdar Cəmiyyətinin (ASC) əsas xüsusiyyəti nədir?

- Səhmlərin gizli dövriyyəsi
- Yalnız dövlətin təsis edə bilməsi
- Səhmlərin yalnız təsisçilər arasında bölüşdürülməsi
- İştirakçı sayının məhdud olması
- √ Səhmlərin sərbəst satılması və fond birjalarında alınıb-satılması

71. Məhdud məsuliyyətli cəmiyyətin (MMC) iştirakçılarının məsuliyyəti necədir?

- Öz şəxsi əmlakları ilə tam cavabdehdirlər
- Heç bir məsuliyyət daşımırlar
- Yalnız səhmlərinin dəyəri qədər
- √ Öhdəliklərə görə yalnız qoyduqları mayaların dəyəri həddində
- Dövlət tərəfindən təmin edilir

72. Hüquqi şəxsin əsas xüsusiyyətlərindən biri hansıdır?

- Qeyri-rəsmi fəaliyyət göstərməsi

- Əmlaksız fəaliyyəti
- Yalnız fiziki şəxslər tərəfindən yaradılması
- Vergidən azad olması
√ Müstəqil balansının olması

73. Maliyyə hesabatının əsas funksiyası nədir?

√ İnformasiyanı istifadəçilərə təqdim etmək
- Əməliyyatları sənədləşdirmək
- İqtisadi hadisələri qeyd etmək
- Vergi ödəmələrini göstərmək
- Qanunvericilik tələblərini icra etmək

74. Maliyyə uçotu hansı funksiyanı yerinə yetirir?

- Yalnız hesabatı tərtib etmək
√ İnformasiya formalaşdırmaq və nəzarəti həyata keçirmək
- Mənfəət vergisini hesablamaq
- Kreditləri təsdiq etmək
- Dövlət subsidiyalarını bölüşdürmək

75. Maliyyə hesabatında əks olunan informasiya necə xarakterizə olunur?

- Sənədsiz məlumatlarla
- Ayrı-ayrı bütün obyektlərin tam açıqlanması ilə
- Yalnız tədqiqat xərcləri üzrə
- Yalnız qeyri-maddi aktivlər üzrə
√ Aqreqasiyalaşdırılmış informasiya kimi

76. Maliyyə uçotu informasiyası necə təqdim olunur?

- Mühasibin şifahi izahı ilə
- Bank arayışı ilə
- Vergi bəyannaməsi ilə
- Dövlət sifarişi ilə
√ Maliyyə hesabatı vasitəsilə

77. İqtisadi hadisələrin maliyyə informasiyasına çevrilməsi hansı üsullarla həyata keçirilir?

- Sadəcə kassa əməliyyatları ilə
- Yalnız hesabat dövrlərində
- Dövlət büdcəsinin göstərişləri ilə
√ Sənədləşdirmə, ikili yazılış, hesablar və registrlərin tətbiqi ilə
- Yalnız hesabların aparılması ilə

78. "Ehtiyatlar" hesabı haqqında aşağıdakı fikirlərdən hansı səhvdir?

- balansın aktiv bölməsində qeyd olunur
- satılan məhsullardı
- müəssisə tərəfindən alınıb anbara mədaxil edilir
√ uzunmüddətli aktivdir
- cari aktivdir

79. Aşağıdakılardan Passiv hesablara daxil olanlar?
I. Əvvəlcədən ödənmiş sığorta
II. Qazanılmamış gəlir
III. Yığılmış amortizasiya
IV. verilmiş borc
V. Verilmiş güzəşt
VI. alınmış borc
VII. Əməkhaqqı öhdəliyi

- I; II; VII
- I, II, III
- I, III; V
- I; II; IV;VII
- √ II;VI;VII

80. Maliyyə hesabatının tam siyahısına daxildir:
1. Maliyyə vəziyyəti haqqında hesabat
2. Mənfəət və zərər haqqında hesabat
3. Kapitalın dəyişilməsi haqqında hesabat
4. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
5. Rəhbərliyin hesabatı
6. Qeydlər

- 1;3;4;5
- 1,4;5
- 1;3;5
- √ 1;2;3;4;6
- 1;2;5

81. A müəssisəsinin ofisini B müəssisəsinin işçiləri təmizləmiş və bunun qarşılığında A müəssisəsi 70 manat borclu qalmışdır. Bu əməliyyat A müəssisəsinin maliyyə hesabatının elementlərinə necə təsir edəcəkdir?

- öhdəliklər azalacaq
- kapital yaranacaq
- aktivlərin yerdəyişməsi baş verəcək
- √ passivlərin yerdəyişməsi baş verəcəkdir
- aktivlər azalacaq

82. A müəssisəsi B müəssisəsindən 1200 manat dəyərində kompüter avadanlığını nağd pula alır. Bu əməliyyat A müəssisəsinin maliyyə hesabatının elementlərinə necə təsir edəcəkdir?

- aktivlər artacaq
- aktiv və passivin artması
- aktivlər və passivlər azalacaqdır
- √ aktivlərin yerdəyişməsi baş verəcək
- öhdəliklər artacaq

83. Şirkət göstərəcəyi xidmətin qarşılığını ayın əvvəlində alır. Ayın sonunda xidmət göstərilib bitdikdən sonra qeyd olunan yazılışın balansa təsiri hansı tip əməliyyata aiddir?

- aktivlərin azalması əməliyyatı
- passivin artması əməliyyatı
- aktivlərin yerdəyişməsi əməliyyatı
- √ passivlərin yerdəyişməsi əməliyyatı
- aktivin artması əməliyyatı

84. Derbi Sirkətinin 2019-cu ilin avqustuna olan maliyyə məlumatları aşağıdaki kimi olmuşdur. Bölüşdürülməmiş mənfəəti tapın. 31iyul 2019 cu il- Kredit borc-12300, Debitor borc 27200,Xüsusi kapital 15000,Bölüşdürülməmiş mənfəət ?, Kassa 48000,Ofis ləvəzimatı-2400. Bölüşdürülməmiş mənffəti tapın?

- 50200
- 50100
- √ 50300
- 52000
- 51000

85. Müəssisənin aktiv və öhdəlik hesabları aşağıdakı kimidir. Sahibkarın kapitalını hesablayın:
→ Sahibkarın müəssisə üçün istifadə etdiyi bina: 100 000 AZN
→ Sahibkarın yaşayış evi: 150 000 AZN
→ Müəssisənin debitor borcları: 20 000 AZN
→ Sahibkarın evindəki pul vəsaiti: 50 000 AZN
→ Bankın müəssisəyə dövriyyə kapitalı olaraq təmin etdiyi kreditin məbləği: 80 000 AZN
→ Bankın sahibkarın yaşayış evini satın alması üçün təmin etdiyi kreditin məbləği 100 000 AZN

- 60000
- 140 000
- 25000
- 20 000
- √ 40000

86. Maliyyə uçotu maliyyə informasiyasının formalaşdırılmasının hansı mərhələsidir?

- Son mərhələsidir
- Yekun qiymətləndirmədir
- Sadəcə hesabat mərhələsidir
- √ Başlanğıc mərhələsidir
- Ara mərhələdir

87. Şirkət hər birinin ilkin dəyəri 25 000 manat olan 4 ədəd nəqliyyat vasitəsini satmaq qərarına gəlir. Bu nəqliyyat vasitələri hər biri ildə 1500 nanat olmaqla 6 il amortizasiya olunmuşdur. Nəqliyyat vasitələrinin satışı ila bağlı debitor borclar 60 000 manat təşkil edir. Nəqliyyat vasitələrinin satışı ilə bağlı MZHH-da əks olunacaq?

- 100000 zərər
- √ 4000 zərər
- heç bir mənfəət və ya zərər qeyd olunmur
- 100000 mənfəət
- 4000 mənfəət

88. Mebel istehsalı ilə məşğul olan müəssisə dövr ərzində 80 000 manat dəyərində taxtakəsən dəzgahlar alır. Müəssisə bu dəzgahlar vasitəsi ilə satmaq üçün hər birinin dəyəri 3000manat olan 5 dəst mətbəx mebeli istehsal edir.
Verilmiş informasiya əsasında müəssisənin uzunmüddətli və qısamüddətli aktivlərinin dəyəri nə qədər olacaqdır?

- uzunmüddətli aktivlər 0; qısamüddətli aktivlər 95000
- √ uzunmüddətli aktivlər 80000; qısamüddətli aktivlər 15000
- uzunmüddətli aktivlər 95000; qısamüddətli aktivlər 0
- uzunmüddətli aktivlər 15000; qısamüddətli aktivlər 80000

89. Şirkət mal-material ehtiyatlarının maya dəyərini FIFO metodunu tətbiq etməklə qiymətləndirir. 1 Yanvar 2018-ci il tarixində şirkətin mal- material ehtiyatlarında hər biri 120 AZN olan 400 ədəd mühərrik var idi. 31 Dekabr 2018-ci ildə bitən hesabat ili üçün aşağıdakı əməliyyatlar əsasında satılan malların maya dəyəri nə qədər olar? Alış 250 ədəd mühərrik 160 AZN
Satış 300 ədəd mühərrik. 155AZN
Alış 300 ədəd mühərrik. 170AZN
Satış 100 ədəd mühərrik 160 azn

- 64000
- 46000
- 66000
- √ 48000
- 65000

90. Ehtiyatlar hesabında uçotu aparılır

- bina
- şirkətdə xidmət üçün alınmış mebel
- şirkətdə xidmət üçün alınmış avtomobil
- √ xammal materillar
- şirkətdə xidmət üçün alınmış komputer

91. Ehtiyatlara aiddir:

- şirkətdə xidmət üçün alınmış avtomobil
- bina
- şirkətdə xidmət üçün alınmış komputer
- √ xammal materillar

- şirkətdə xidmət üçün alınmış mebel

92. Ehtiyat deyil:

- bina
- torpaq
- satmaq üçün anbara alınıb yığılmış avtomobil
- satmaq üçün anbara alınıb yığılmış mebel
- √ şirkətdə xidmət üçün alınmış avtomobil

93. Keçmiş hadisələrdən yaranmış və ödənilməsi müəssisənin iqtisadi səmərə gətirəcək resurslarının çıxmasına səbəb ola biləcək mövcud element hansıdır?

- kapital
- aktiv
- xərc
- gəlir
- √ öhdəlik

94. Maliyyə Menecerinin nəzarət funksiyasının əsas məqsədi nədir?

- Qanun yazmaq
- Məhsul istehsalını artırmaq
- Vergi yığmaq
- √ Uyğunsuzluqları aşkar etmək və aradan qaldırmaq
- Yalnız işçiləri qiymətləndirmək

95. Maliyyə uçotunda Menecment elmi əsasən hansı sahəyə aiddir?

- Tibbi xidmətə
- Mühəndisliyə
- √ İdarəetməyə
- Kənd təsərrüfatına
- Mühasibatlığa

96. Öhdəliyin tərifini yazın:

- Öhdəlik – gələcək hadisələrdən yaranmış və ödənilməsi müəssisənin iqtisadi səmərə gətirəcək resurslarının çıxmasına səbəb ola biləcək mövcud öhdəlikdir.
- Öhdəlik – müəssisənin kapitalından üstün olmalı və ödənilməli borcdur
- Öhdəlik – gələcək hadisələrdən yaranmış və ödənilməsi mümkün olmayan mövcud öhdəlikdir.
- √ Öhdəlik – keçmiş hadisələrdən yaranmış və ödənilməsi müəssisənin iqtisadi səmərə gətirəcək resurslarının çıxmasına səbəb ola biləcək mövcud öhdəlikdir.
- Öhdəlik – keçmiş hadisələrdən yaranmış və müəssisəyə iqtisadi səmərə gətirəcək

97. Farhadın müəssisəsi aşağıdakı aktiv və öhdəliklərə malikdir. Onun kapitalı nə qədərdir? Pul vəsaiti 20 000 Mal-material ehtiyatları 20 000 Təchizatçılara olan borclar 5000 Bank krediti 30 000 Mebel 5000

- 5000
- √ 10 000
- 15 000
- 25000
- 20 000

98. Mühasibat (maliyyə) bərabərliyini aşağıdakı kimi yazmaq olar:

- ilkin kapital + mənfəət -dividend - öhdəliklər=aktivlər
- √ Aktivlər - öhdəliklər - ilkin kapital + dividend = mənfəət
- aktivlər-öhdəliklər-dividend=ilkin kapital+mənfəət
- aktivlər + mənfəət - dividend - öhdəliklər = son kapital
- aktiv =mənfəət-dividend

99. Natiqin müəssisəsi aşağıdakı aktiv və öhdəliklərə malikdir, onun kapitalı nə qədərdir? Pul 10 000, Mal-materiallar 10 000, Təhcizatçılara olan borc 2500, Bank krediti 15 000, Mebel-2500

- 7500
- 10500
- 10 000
- √ 5000
- 2500

100. Yazılanlardan hansı maliyyə bərabərliyində kapital düzgün əks etdirir?

- kapital=öhdəliklər-aktivlər
- Kapital=ohdəlik :aktiv
- kapital=aktivlər+öhdəliklər
- √ kapital=aktivlər-öhdəliklər
- kapital=öhdəliklər*aktivlər

101. Maliyyə bərabərliyinin hansı doğrudur?

- aktivlər-8860 AZN öhdəliklər-5000 AZN kapital-1260 AZN
- aktiv 1200 kapital 9960 öhdəlik 5000
- aktivlər-9960 AZN öhdəliklər-8660 AZN kapital-1100 AZN
- aktivlər-9960 AZN öhdəliklər-8660 AZN kapital-1200 AZN
- √ aktivlər-8660 AZN öhdəliklər-6000 AZN kapital-2660 AZN

102. MVHH-da hansı maliyyə bərabərliyi düzgündür?

- aktivlər+öhdəlikilər+gəlirlər
- aktiv=öhdəlik -gəlir
- aktivlər=kapital-öhdəliklər
- √ aktivlər=kapital+öhdəliklər
- aktivlər=öhdəliklər+xərclər

103. Müəssisənin aktivlərinin real məbləğinin sənədlər üzərində olan məbləğlə üst-üstə düşməməsi mühasibat uçotunun hansı prinsipinə ziddir?

- hesablama
- sənədləşmə
- gəlirlərin xərclərə uyğunluğu
- √ mahiyyətin formadan üstünlüyü
- ikiliyazılış

104. Əhəmiyyətlilik konsepsiyasına görə:

- bütün itkilər daha iri şriftlə qeyd olunmalıdır
- heç biri
- bütün qazanclar qeyd olunmalıdır
- √ əhəmiyyət kəsb edən bütün məlumatlar qeyd olunmalıdır
- maliyyə hesabatlarını uçot dövründən dərhal sonra təqdim etmək lazımdır

105. Müqayisəlilik konsepsiyasına görə:

- mühasibat uçotu siyasətində dəyişikliklər etmək olmaz
- yalnız gəlirlərin taninması tələb olunur
- √ iki müxtəlif il üzrə maliyyə məlumatının verilməsi tələb olunur
- heç biri
- bütün "gizli" öhdəliklərin tanınması tələb olunur

106. Əməliyyatın hüquqi forması deyil, iqtisadi mahiyyətinin əks olunmasını tələb edən keyfiyyət göstəricisi necə adlandırılır?

- ardıcıllıq
- etibarlılıq
- dövrülük
- √ mahiyyətin forması üzərində üstünlüyü
- ehtiyatlılıq

107. Mühasibat uçotunun hesablama konsepsiyasına görə:

- xərclər baş verdiyi anda qeyd etmək lazımdır
- mənfəət baş verdikdə qeyd etmək
- əməliyyatları hüquqi formalarına görə deyil, mahiyyətinə görə qeyd etmək lazımdır
- əməliyyatın nəticəsi olan pul vəsaiti daxil olduğu anda qeyd etmək lazımdır
- √ əməliyyatı baş verdiyi anda qeyd etmək lazımdır

108. Aşağıdakılardan biri xalis kapitalın azalmasına səbəb olur

- məhsulların satışı
- aktivlərin dəyərinin artması
- gəlirin artması
- √ xərcin artması
- sahibkarın əlavə kapital qoyuluşu

109. Aşağıdakılardan biri xalis kapitalın artmasına səbəb olur

- dividend hesablanması
- dividendlərin hərəkəti
- xərcin artması
- dividend ödənişi
- √ gəlirin artması

110. Müəssisəndə kapitalın ümumi dəyəri belə müəyyən olunur

- A=K:Ö
- K=Ö-A
- K=A+Ö
- √ K = A-Ö
- K=AxÖ

111. keçmiş hadisələr nəticəsində təşkilat tərəfində nəzarət olunan mövcud iqtisadi resursdur. İqtisadi resurs-iqtisadi faydalar yaratmaq potensialına malik hüqüqdur; bu tərif hansı elementə aiddir

- öhdəlik
- xərc
- gəlir
- √ aktiv
- kapital

112. aktivlərin azalmasıdır yaxud öhdəliklərin artmasıdır, hansılar ki, xüsusi kapitalın təşkilatın xüsusi kapitalına münasibətdə tələbetmə hüquqlqrına sahibolanların xeyrinə bölüşdürülmələr ilə əlaqədar olmayan azalmasına gətirib çıxarır: bu tərif hansı elementə aiddir

- gəlir
- kapital
- öhdəlik
- √ xərc
- aktiv

113. Mülkiyyətçilərin kapital qoyuluşu ilə əlaqəli olmayan, lakin kapitalda artım ilə nəticələnən və hesabat dövrü ərzində aktivlərin artması, daxil olması və ya öhdəliklərin azalması şəklində iqtisadi səmərənin artımıdır: bu tərif hansı elementə aiddir

- aktiv
- öhdəlik
- xərc
- kapital
√ gəlir

114. Dt Gələcək dövrün xərcləri XXX
Kt Bank XXX
Bu mühasibat yazılışı uçotun hansı prinisipinə əsasən aparılmışdır?

- ardıcıllıq
- ehtiyatlılıq
- mahiyyətin formadan üstünlüyü
√ dövrilik
- obyektivlik prinsipi

115. Dt Kassa XXX
Kt Gələcək dövrün gəlirləri XXX
Bu mühasibat yazılışı uçotun hansı prinisipinə əsasən aparılmışdır?

- hesablama
- ehtiyatlılıq
- mahiyyətin formadan üstünlüyü
√ dövrilik
- ardıcıllıq

116. Müəssisə 2018-ci ilin noyabr ayından başlayaraq 2019-cu il oktyabr ayı dövrünə aid bir illik icarə xərcini qabaqcadan nağd şəkildə ödəmişdir. Mühasib ödənilən bu məbləğin bir hissəsini 2018-ci ilin xərcinə, qalan hissəsini isə növbəti dövrün xərcinə aid etmişdir. Bu əməliyyat mühasibat uçotunun hansı prinsipinin tələbidir?

- ehtiyatlılıq
√ dövrilik
- ardıcıllıq
- dövrülük
- mahiyyətin formadan üstünlüyü

117. Gələcəkdə gəlirlərin baş vermə ehtimalının yüksək olduğu halda qeydiyyatının aparılmaması, lakin xərclərin və zərərlərin gözləntisinin yüksək olduğu zaman isə dərhal qeydiyyatın aparılması mühasibat uçotunun hansı prinsipinə görədir?

- dövrilik
√ ehtiyatlılıq
- mahiyyətin formadan üstünlüyü
- ardıcıllıq
- aydınlaşdırma

118. Mühasibat uçotunda istifadə edilən seçilmiş siyasət və metodlar hər dövrdə eyni şəkildə tətbiq edilməlidir. Bənzər əməliyyatların qeydiyyatı prosesinin addımları dəyişməməlidir. Düzgün səbəblərə görə dəyişikliklər edilərsə, bu dəyişikliyin səbəbləri və nəticələri açıqlanmalıdır. Bu mühasibat uçotunun hansı prinsipini izah edir?

- neytrallıq
- fasiləsizlik
- maddilik
√ ardıcıllıq
- ikiliyazılış

119. Bir məhdud məsuliyyətli cəmiyyətin payçılarından (ortaqlarından) biri vəfat etdiyi üçün şirkətin fəaliyyətinin dayandırılması qərarına gəlinmişdir. Bu zaman mühasibat uçotunun hansı prinsipi pozulmuşdur?

- kassa prinsipi
- mahiyyətin formadan üstünlüyü
- hesablama prinsipi
√ müəssisənin fəaliyyətinin fasiləsizliyi

- obyektivlik prinsipi

120. Müəssisənin rəhbəri həmçinin şirkətin direktorudur. O öz səlahiyyətindən istifadə edərək xəzinadardan 5000 manat pul götürərək şəxsi məqsədləri üçün sərf edir. Bu zaman mühasibat uçotunun hansı prinsipi pozulmuşdur?

- fasiləsizlik prinsipi
- hesablama prinsipi
- √ müəssisənin müstəqilliyi prinsipi
- mahiyyətin formadan üstünlüyü
- kassa prinsipi

121. Hansı hallarda aktivlərin qısamüddətli və uzunmüddətli kimi təsnifləşdirilməsi məqsədəuyğun sayılmır?

- √ fəaliyytin fasiləsizliyi prinsipi pozulduqda
- müəsisə mövsümı fəaliyyət göstərirsə
- qeyri-rəsmi fəaliyyət göstərirsə
- müəssisə fasiləsiz fəaliyyət göstərirsə
- beynəlxalq maliyyə hesabatlarına uyğun fəaliyyət göstərmirsə

122. Aşağıdakılardan hansı maliyyə hesabatlarının istifadəçiləridir?
1.Sahibkar
2.Rəhbərlik
3.Dövlət
4.Təchizatçılar

- 1;2 və 3
- 1 və 2
- yalnız 4
- 2 və 4
- √ bütün cavablar düzgündür

123. Mühasibat uçotu müəssisənin hansı idarəetmə alətinə aiddir:

- yoxlama
- planlama
- təşkiletmə
- √ nəzarət
- motivasiya

124. Müəssisə sahibləri aşağıdakılardan hansılar ilə maraqlanır?

- müəssisənin qisamüddətli öhdəlikləri
- müəssisənin aktivləri
- müəssisənin gəlirliliyi
- √ bütün cavablar düzgündür
- müəssisənin uzunmüddətli öhdəlikləri

125. Ortaqlığın iflasa uğradığı hallarda, müəssisə sahiblərinin şəxsi əmlakı borcların ödənilməsi üçün istifadə oluna bilərmi?

- məsuliyyət müəssisənin mənfəəti ilə məhdudlaşır
- xeyr
- məsuliyyət səhmələrin nominal dəyəri ilə məhdudlaşır
- √ bəli
- məsuliyyət müəssisənin öz hesabı ilə məhdudlaşır

126. Fərdi sahibkarın iflasa uğradığı hallarda, müəssisə sahibinin şəxsi əmlakı borcların ödənilməsi üçün istifadə oluna bilərmi?

- xeyr
- məsuliyyət müəssisənin zərəri ilə məhdudlaşır
- məsuliyyət müəssisənin mənfəəti ilə məhdudlaşır
- √ bəli

- məsuliyyət səhmələrin nominal dəyəri ilə məhdudlaşır

127. Səhmdar cəmiyyətlərinin ali idarəetmə orqanı aşağıdakılardan hansıdır?

- köməkçi heyət
- direktorlar şurası
- ortaqların ümumi yığıncağı
- √ səhmdarların ümumi yığıncağı
- idarə heyəti

128. Məhdud məsuliyyətli cəmiyyətin sahibləri kimlərdir?

- √ payçılar
- direktor
- ortaqlar
- idarəedicilər
- tənzimləyicilər

129. Fərdi sahibkarlıq müəssisəsinin neçə sahibi olur?

- √ bir
- maksimum 20-yə qədər
- maksimum 10 ədəd
- qeyri-məhdud sayda
- iki

130. Səhmdar cəmiyyəti nədir?

- azı üç fiziki və hüquqi şəxslərin könüllü sazişi əsasında formalaşan və nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşən miqdarda paylara bölünən müəssisə
- azı bir fiziki və hüquqi şəxslərin könüllü sazişi əsasında nizamnamə fondu formalaşan müəssisə
- yalnız 1 hüquqi şəxs ilə nizamnamə fondu ilə formalaşan müəssisə
- təsisçilərin sayına heç bir məhdudiyyət qoyulmadan könüllü saziş əsasında nizamnamə fondu formalaşdırılan müəssisə
- √ azı üç fiziki və hüquqi şəxslərin könüllü sazişi əsasında nizamnamə fondu formalaşan müəssisə

131. Kommersiya müəssisələrinin fəaliyyətinin əsas məqsədi nədir?

- yuxarıdakıların hamısı
- alış qiyməti ilə tanışliq
- hesabat vermək
- insanları yeni iş yerləri ilə təmin etmək
- √ mənfəət əldə etmək

132. Müəssisə 5000 manat dəyərində ehtiyat almış, 3000 manatını kassadan ödəmiş, 2000 manatını borclu qalmışdır. İkili yazılış verin.

- dt ehtiyat 5000 kt kassa 2000 kt malsatana borc 3000
- √ dt ehtiyat 5000 kt kassa 3000 kt malsatana borc 2000
- kt ehtiyat 5000 dt kassa 3000
- dt ehtiyyat 3000kt kassa 3000
- kt ehtiyat 3000 dt kassa 3000 dt malsatana borc 2000

133. Yanvarın 1-də Müəssisənin anbarında 30 ədəd hər birinin alış qiyməti 2 manat olan mal var. 12 yanvarda müəssisə 30 ədəd malı hər biri 2,5 manata olmaqla 75 mnata almışdır. 17 yanvarda müəssisə 50 ədəd malı hər biri 3 manata olmaqla 150 mnata almışdır. 22 yanvarda satılmış 50 ədəd malın FİFO və AVCO metodları arasında maya dəyəri fərqini hesablayın

- 178
- 150
- √ 19.50
- 75
- 62.50

134. Gəlirin tanınması üçün əsas şərt

- Ödənişin milli valyuta ilə edilməsi
- podratçıya avans verilməsi
- Alıcılar və ya sifarişçilərdən ödənişin daxil olması və müqaviləyə əsasən əməliyyatın tamamlanmış olması
- √ müqaviləyə əsasən əməliyyytın tamamlanmış olması
- ödənişin xarici valyuta ilə edilməsi

135. Əmək haqqı xərclərinin hesablanması üçün ikili yazılışı müəyyən edin.

- dt əmək haqqı xərci kt kassa
- √ dt xərc kt əmək haqqı öhdəliyi
- dt kassa kt əmək haqqı xərci
- dt əmək haqqı öhdəliyi kt xərc
- dt kassa kt istehsal məsrəfi

136. Biznes fəaliyyəti üçün istifadə olunmuş ehtiyatlar üçün ikili yazılış verin

- dt ehtiyatlar kt gəlir
- dt ehtiyatlar kt xərc
- dt gəlir kt sair ehtiyatlar
- √ dt istehsal məsrəfləri kt ehtiyatlar
- dt gəlir kt ehtiyyat

137. Alınmasına 3000 AZN, quraşdırılmasına 800 AZN, xərc çəkilən aktivin ilkin dəyəri nə qədər olacaq?

- 0
- 2220
- 3000
- 800
- √ 3800

138. Alınmasına 1000 AZN, daşınmasına 500 AZN, istifadə olunacağı tarixə qədər anbarda saxlanılmasına 150 AZN xərc çəkilən aktivin ilkin dəyəri nə qədər olacaq?

- 1000
- 800
- 1350
- 1150
- √ 1500

139. Aktivin gözlənilən mümkün satış qiyməti 1100 manat, satışın baş tutması üçün çəkilməli olan xərc 400 manatdırsa, mümkün xalis satış dəyəri nə qədərdir?

- 400
- 1500
- 800
- 1100
- √ 700

140. Malsatana ticari öhdəlik hesabının ilkin qalığı 3000 manatdır. Dövr ərzində həmin malsatandan 4000 manat dəyərində kreditlə mal alınmış və həmin malsatana 5000 manat ödəniş edilmişdir. Dövrün sonuna hesabın qalığını hesablayın.

- 8000
- 5000
- 4000
- 7000
- √ 2000

141. Yanvarın 1-də Müəssisənin anbarında 20 ədəd hər birinin alış qiyməti 2 manat olan mal var. 12 yanvarda müəssisə 30 ədəd malı hər biri 2,2 manata olmaqla 66 mnata almışdır. 17 yanvarda müəssisə 50 ədəd malı hər biri 2,4 manata olmaqla 120 mnata almışdır. 22 yanvarda satılmış 50 ədəd malın FİFO və AVCO metodları arasında maya dəyəri fərqini hesablayın

- 20
- 22
- 66
- √ 7
- 120

142. Yanvarın 1-də Müəssisənin anbarında 10 ədəd hər birinin alış qiyməti 2 manat olan mal var. 12 yanvarda müəssisə 30 ədəd malı hər biri 2,2 manata olmaqla 66 mnata almışdır. 17 yanvarda müəssisə 50 ədəd malı hər biri 2,4 manata olmaqla 120 mnata almışdır. 22 yanvarda satılmış 50 ədəd malın AVCO metodu ilə maya dəyərini hesablayın

- 110
- 302
- 206
- √ 114
- 120

143. Yanvarın 1-də Müəssisənin anbarında 10 ədəd hər birinin alış qiyməti 2 manat olan mal var. 12 yanvarda müəssisə 30 ədəd malı hər biri 2,2 manata olmaqla 66 mnata almışdır. 17 yanvarda müəssisə 50 ədəd malı hər biri 2,4 manata olmaqla 120 mnata almışdır. 22 yanvarda satılmış 50 ədəd malın FİFO metodu ilə maya dəyərini hesablayın

- 117
- 120
- 115
- √ 110
- 116

144. Müəssisə 7000 manat dəyərində xammal almış, həmin malın öz anbarına çatdırılması üçün 1000 manat, istifadə olunacağı günə qədər anbrda saxlanılmsı üçün 400 manat sərf etmişdir.həmin xammalın ilkin dəyəri nə qədər qiymtləndirilməlidir?

- 3400
- 7400
- √ 8000
- 8400
- 7000

145. Müəssisə 4000 manat dəyərində xammal almış, həmin malın öz anbarına çatdırılması üçün 700 manat, istifadə olunacağı günə qədər anbrda saxlanılmsı üçün 80 manat sərf etmişdir.həmin xammalın ilkin dəyəri nə qədər qiymtləndirilməlidir?

- √ 4700
- 4780
- 2000
- 4000
- 4080

146. Ehtiyatların ədalətli dəyərinin müəyyyən olunması metodunun arxasınd hansı keyfiyyət xarakteristikası durur?

- tamlıq
- ardıcıllıq
- obyektivlik prinsipi
- √ ehtiyatlılıq
- anlaşılanlıq

147. Dövrün əvvəlinə mal qalığı 33000 manat, dövrün sonuna mal qalığı 37000 manat olmuşdur. Dövr ərzində 50000 manatlıq mal alınmışdır. Döv ərzində satılan malların maya dəyəri nə qədərdir?

- 6000
- 120000
- √ 46000

- 55000
- 50000

148. Dövrün əvvəlinə mal qalığı 18000 manat, dövrün sonuna mal qalığı 10000 manat olmuşdur. Dövr ərzində 20000 manatlıq mal alınmışdır. Döv ərzində satılan malların maya dəyəri nə qədərdir?

- 2300
- 20000
- √ 28000
- 12000
- 48000

149. Dövrün əvvəlinə mal qalığı 4000 manat, dövrün sonuna mal qalığı 5000 manat olmuşdur. Dövr ərzində 20000 manatlıq mal alınmışdır. Döv ərzində satılan malların maya dəyəri nə qədərdir?

- 29000
- 20000
- 21000
- √ 19000
- 3000

150. Ehtiyatların uçotu və maya dəyərinin müəyyən olunması ilə bağlı dövri metoddan istifadə edən müəssisələrüçün doğrudur:

- √ hər dövrün sonunda maya dəyərini müəyyən etməlidirlər.
- hər dövrün əvvəlində maya dəyərini müəyyən etməlidirlər.
- hər 1 satışdan bir maya dəyəri müəyyən etməlidir
- hər satışda maya dəyərini müəyyən etməlidirlər
- hər 10 satışdan bir maya dəyərini müəyyən etməlidirlər

151. Ehtiyatların uçotu və maya dəyərinin müəyyən olunması ilə bağlı fasiləsiz metoddan istifadə edən müəssisələrüçün doğrudur:

- hər 1 məhsuldan bir maya dəyəri müəyyən etməlidir
- √ hər satışda maya dəyərini müəyyən etməlidirlər
- hər dövrün əvvəlində maya dəyərini müəyyən etməlidirlər.
- hər 10 satışdan bir maya dəyərini müəyyən etməlidirlər
